# AZƏRBAYCAN RESPUBLİKASI
# ENERGETİKA NAZİRLİYİNİN KOLLEGİYASI

**Q Ə R A R**

№ 03

**Bakı şəhəri** "27" sentyabr **2016-cı il**

**Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Qaz istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"də və "Enerji istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"də dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.10.5-ci yarımbəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 1.3.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Qaz istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"in 1.3-cü bəndinin dördüncü abzasında "116, 116-1 və 118-ci" rəqəmləri "279, 280 və 282-ci" rəqəmləri ilə əvəz edilsin.
2. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Enerji istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"in 1.3-cü bəndinin dördüncü abzasında "116, 116-1 və 118-ci" rəqəmləri "279, 280 və 282-ci" rəqəmləri ilə əvəz edilsin.
3. Hüquqi münasibətlər şöbəsinə tapşırılsın ki, bu Qərarın qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.
4. Bu Qərarın icrasına nəzarət nazir müavini Gülməmməd Cavadova həvalə edilsin.

Kollegiyanın sədri,
Azərbaycan Respublikasının
energetika naziri

Natiq Əliyev